Archive of SID


УДК 1 (091).
КВТ 87.3; 87.3(4\8)
http://dx.doi.org/10.29228/metafizika.10

*Vaqif QULİYEV* *
*(Azərbaycan)*

*Tehran Universiteti*

# Fərabi irsində nəzər və əməlin vəhdəti kontekstində formadan məzmuna açılan yol

***Xülasə***

*Farabi elmi-fəlsəfi irsi elmin müxtəlif sahələrində çağımıza qədər gəlib çıxmaqdadır. Əbəs deyil ki, Farabi tarixə ikinci müəllim adı ilə imza çəkmişdir. İkinci müəllimin elmi-fəlsəfi sistemi, metodologiyası və teoriya-praktikanın vəhdəti elm dünyasına və insan dünyagörüşünə bəxş etdiyi əsas töhfədir. Bu məqalə, filosofun dünya elmi irsini zənginləşdirmiş bəzi kitab və traktatlarını, o cümlədən "Ehsaul-ülum" (elmlərin təsnifatı), "əl-millət" və "ət-tənbih əla səbilis-səadəti" (xoşbəxtlik yoluna açılan agahlıq) rəhbər tutub, günümüzdə insan həyat və düşüncə prosesinə mane olan əməl və nəzərin ayrılığına son qoyub, məqalənin həcmi qədərində vəhdət prinsipi və bu vəhdətdə forma və məzmunun göstərilməsinə işıq salmaq niyyətindədir. Farabinin tarixdə əsas təsiri müxtəlif elm adamları arasında yaratdığı əlaqə və bağlılıqlar, həmçinin sonralar dünya elminə əlavə ediləcək elmlərin təməlinin qoyulmasıdır. Filosofun pərakəndəliyi nizamlaması və elmləri bir çətir altına toplaması indiyə qədər uzanan ixtilafı nişan almışdır. Buna görədir ki, məqalədə elmlərin xüsusilə fiqh (hüquq), fəlsəfə, kəlam, din münasibətləri göstərilmiş və hər birinin özünə xas sərhədləri bəlli edilmiş, nəticədə vəhdət kontekstində hansının forma və hansının məzmun xarakterli olması göstərilmişdir. İkinci müəllimin fiqh və hüquqa münasibə-*

* Fəlsəfə üzrə fəlsəfə doktoru.
vaqif.quliyev.80@mail.ru,
https://orcid.org/0000-0002-4288-249X



www.SID.ir

Archive of SID


*ti günümüzdə insanların zahiri əməl və qarşılıqlı münasibətlərini tənzimləyə biləcək hüquqdan genişdir. Bu yolla Farabi, əməl, fərdi və ictimai münasibətlərin dairəsini genişləndirərək onu fəlsəfə ilə təmasda yerləşdirir və bu yolla fəlsəfənin ayağını hüquq və fiqhə açmış olur. Məqalədə göstərilir ki, fiqh və hüququn bu qədər geniş sahəni əhatə etməsi, teologiya və fəlsəfənin bəhs obyektini müsadirə etmir. Bunu isbatlamaq üçün ikinci müəllim, teologiyanın hüdudlarını və fəlsəfənin mahiyyətini tarixə və elm dünyasına bəlli etmişdir. Teologiyanı arqumentasiyadan kənar dartışmaların məqsədində yerləşdirmiş, fəlsəfəni isə fiqhin fövqündə, məsələlərə mahiyyətcə yanaşa biləcək elm kimi təqdim etmişdir. Nəhayət millət kimi səsləndirdiyi din konsepsiyasını elmi-fəlsəfi gözlükdən görür, dəqiq və dərin incələmişdir. Məqalə, hüquqda açar sözlər sayılan ictihad və istinbatın tarixdə inkişafına da işıq salmışdır.*

***Açar sözlər:*** *Farabi, əməli elmlər, nəzəri elmlər, fiqh (hüquq), teologiya (kəlam), ictihad, istinbat.*

## *Giriş*

IX-X əsrlərdə yaşayıb-yaratmış İslam fəlsəfəsinin təsisçisi, ikinci müəllim Əbu Nəsr əl-Fərabinin tarixdəki dəyəri və əhəmiyyəti elm və fəlsəfə dünyasına gizli deyil. Əbu Nəsr Məhəmməd ibn Məhəmməd ibn Tərxan ibn Uzluğ əl-Fərabi əl-türki (874-950) dünya şöhrətli alim, filosof və ensiklopedik zəka sahibidir.[1] Fərabinin əhəmiyyəti fəsəfə ilə məhdudlanmır, o, elmin müxtəlif sahələrində, o cümlədən fiqh (hüquq), teologiya, təbiət elmləri, musiqi, siyasət və əxlaq alimlərinin ən yaxşı nümunəsidir. İkinci müəllimi fərqləndirən və tarixin həmişə yaşar şəxsinə çevirən amillərdən biri də elmlərin sərhəddini bəlli etməsi və hər bir elmə olduğu dəyəri verməsidir. Həmçinin müasir dünyada məsələlərin daha dəqiq incələnməsi naminə yer tutan “müqayisəli fəlsəfə”[2], doqquzuncu əsr Fərabi zəkasında dirçəlmiş və bəşəriy-

---

[1] Əli ibn Yusif əl-Qəfti, & Camalud-din Əbul-Həsən. (2005). *İxbarul-üləmai biəxbaril-hükəmai*. Beyrut: Darul-kutubil-elmiyyə. (s.210).

[2] Müqayisəli fəlsəfə ***(comparative philosophy)*** fikirlərin və nəzəriyyələrin müqayisə yolu ilə oxşar və fərqli cəhətlərini araşdırmaq deyil. Oxşar və fərqli cəhətlər fəlsəfənin tarixi ilə də təmin olur. Fəlsəfənin tarixi zəminində yazılan kitab və məqalələr, filosofların bəzi fəlsəfi görüşlərinin oxşar və fərqli tərəflərinə işıq salır. Müqaysəli fəlsəfə də belə olarsa, fəlsəfənin tarixindən fərqlənməyəcək. Həmcinin XVIII əsrdən bu tərəfə tarixilik görüşü öncəkiləri yanlış bilib, yalnız özünü doğru hesab etdikdə müqayisəli fəlsəfəni mövzusuz saxlayır. Deməli, müqayisəli fəlsəfə zahirindən başa düşüldüyü kimi qəbul olunmamalıdır. Müqayisəli fəlsəfə mahiyyətində, fəlsəfələrin ruhuna vaqif olmaq və başqa sözlə desək, keçmişə qayıdarkən orada qalmamaqdır. Fəlsəfə əvvəlində nə olub, hansı məsələlərə sahib olub və tarixdə nə kimi



www.SID.ir

Archive of SID


yətin elmi irsinə çevrilmişdir. Bu üzdən hüquq və fəlsəfə görüşləri, kəlam (teoligiya) və fəlsəfə dialoqu, fiqh (hüquq)-teoligiya- fəlsəfə və dinin müqayisəli münasibətləri ikinci müəllimin zahirdə tam fərqli görünən elm adaları arasında barışıq yaratması və fikirlərin bir-birinə keçid ala biləcək körpüsüdür. Bu arada Fərabinin siyasi fəlsəfəsi və eləcədə əxlaq və şəhərsalma mədəniyyəti də çox tanınır. Sonrakılar bütün bu sahələrdə Fərabi irsinin varisləri və davamçılarıdır.

Fərabini başqalarından fərqləndirən cəhət nəzəri və əməli prinsipləri bir araya gətirmək və insan həyatına çəkməsidir. Bu üzdən əsərlərində əməli hikməti nəzəri hikmət qədərində və hətta daha artıq bəhs etməsi Fərabini tarixdə qabardır. Filosofdan "İhsaul-ülum" (elmlərin təsnifatı), "əl-Millət", "ət-Tənbih əla səbilis-səadət" (xoşbəxtliyə açılan yola agahlıq) və bu qəbildən olan şah əsərləri dediklərimizə bariz nümunədir. Şübhəsiz Fərabi orta əsrlər intibah dövrünün başlanğıc nöqtəsidir. İkinci müəllimin elmin müxtəlif sahələrini insan həyatına tətbiq etməsi, elm və əməl fasiləsini azaldıb, aradan qaldırması filosofun tarixdəki misilsiz yerini göstərir. Fərabi elmi irsində insan həyatını zənginləşdirə biləcək bir çox sahələri araşdırmaq olar. Lakin elmlərin müqayisəli tətbiqi, xoşbəxtlik və fəzilət, əxlaq prinsipləri və bu prinsiplərin cəmiyyətdə yayılması yolları əsas mövzulardır. Bu mövzular bir məqalənin həcmindən geniş olduğu üçün indiki məqalədə hüquq, teologiya, fəlsəfə və dinin müqayisəli tətbiqini və hər birinin həqiqi sahəsini araşdırmağı əsas hədəf etmişəm. Sadalanan digər sahələri isə sonrakı məqalədə araşdırmağı ümid edirik.

## *Elmlərin təsnifatı*

Elmin nəzəri və əməli sahələrə bölünməsi Aristotelin[1] zamanından bu tərəfə dünya irsinə çevrilmişdir. Məhz buna görə də müəllimliyin birinciliyi Yunan filosofu Aristotelə xasdır. Bu irs İslam dünyasnda Fərabi tərəfindən davam etdirilir və müəllimlikdə ikincilik pilləsini də tarixda öz adına yazdırmışdır. İslam filosofu bu haqda yazılarının hər sətirində bu məsələyə aşkar və ya sətir altı işarətlər etmiş və bu

təsirə malik olmuşdur kimi suallar bu fəlsəfənin əsas bəhs obyektidir. Deməli, bugünkü filosof, məsələn, Əflatunla tamamilə müxalif olsa da, fəlsəfi sisteminin qurulmasında ondan təsirlənməsi inkaredilməzdir. Nəhayət, müqayisəli fəlsəfə ağlın tarixdə inkişaf prosesini nümayiş etdirən elmdir.

[1] Aristotel, qədim Yunan filosofu və ensiklopediyaçı alim, Peripatetik məktəbinin banisidir. Eramızdan əvvəl 384-də dünyaya göz açmış, 322-də vəfat etmişdir.


www.SID.ir

Archive of SID
Beynəlxalq Metafizika Mərkəzi DOI 10.29228/metafizika.
Metafizika jurnalı ISSN 2616-6879 (Print)
2020, cild 3, say 2, sıra 10 ISSN 2617-751X (Online)

yolla müxtəlif sahələrə baş çəkmişdir. Məsələn, Fərabinin elmlərin təsnifatı kitabı beş fəsildən ibarətdir. O, bu fəsilləri Aristotelin elmləri nəzəri və əməli qismlərə təsnifatı meyarına əsasən tənzim etmişdir. Əlbəttə qeyd etmək zəruridir ki, Fərabinin Aristotelə uyğunluğu yalnız elmləri bu iki əsasda bölməkdir, lakin möhtəvaca bir-birindən fərqlənir. Fərabi adı çəkilən kitabında giriş xarakterli olan iki fəsildən sonra elmləri iki əsas təsnifə bölür.[1]

1- Nəzəri elmlər: Elmlərin təsnifatı kitabının üç və dördüncü fəsli bu sahədə olan elmlərə ixtisaslanmışdır. Bu fəsillər riyaziyyatı bütün sahələri ilə, həmçinin fizika və ilahiyyatı ehtiva edir. Bu sahədə olan elmlərin bəhs obyekti insan əməyi və əməlinin rolu olmadığı varlıqlar və məsələlərdir.

2- Əməli elmlər: Kitabın məhz beşinci fəsli bu sahəni tam olaraq tərənnüm edir. Bu sahədə olan elmlərin bəhs obyekti isə insan iradə və istəyi ilə reallaşa bilən məsələlərdir. Bu sahədə olan elmlərə praktik elmlər və ya Fərabi dilinə uyğun desək “mədəni fəlsəfə” deyilir.[2]

Fərabi əməli elmi iki hissəyə ayırır: biri mədəni elm və ikincisi isə fiqh və kəlamdır. Mədəni elm əxlaq və siyasətdən ibarətdir. Fərabi əxlaqın cəmiyyətdə formalaşması qənaətindədir. Mədinə, şəhər və cəmiyyət deməkdir, əxlaq məhz şəhərdə və cəmiyyətdə məna kəsb edir. Şəhərdədir ki, fəzilətlər və rəzilliklər reallaşır və həyata keçir.[3]

---

[1] Bəzən elmləri təsviri (Descriptiv) və normativ elmlərə də bölürlər. Birincilər kəşf və bəyan xarakterlidir. Hiss orqanları bu qism elmlərdə xarici aləmə nisbətdə passiv və insan iradəsindən təcrid olunmuş vəziyyətdədir. Psixologiya, sosiologiya, iqtisadiyyat, fizika və s. bu qəbildəndirlər. İkincilər isə insan iradəsi aktivliyinin məhsuludur. Yaxşı və pis, tərif və tənqid, xeyir və şər kimi atributların obyekti sayılan elmlər bu qism elmin bəhs obyektidir. Bu elmlər həm bəyan və həm də tövsiyə xarakterlidir. Əxlaq, hüquq və fiqh bu elmin əsas predmetləridir. Əxlaq elmi müəyyən əməllərin yerinə yetirilməsini tövsiyə edir. Bəzi elmlər də iki xarakterlidir. Məntiq elmini bu qəbildən hesab etmək olar. Məntiqin bəzi məsələləri bəyan və təsvir, digər bir qismi isə tövsiyə xarakterlidir. Məsələn sofistikadan uzaq olmağı tövsiyə edir. Epistemologiyanı da XX əsrin əvvəllərinə qədər bəyan xarakterli hesab edirdilər. Lakin XX əsrin ikinci yarısında bu elm tövsiyə xarakterli elmlər sırasına daxil edildi. Məntiq elmi arqumentasıyanın keyfiyyəti, epistemologiya isə epistemenin obyektini bəlliləşdirir.

[2] Əbu Nəsr əl-Farabi & Mühəmməd ibn Mühəmməd. *İhsaul-ülum*. (təhqiq: Osman Əmin). (ikinci çap). Darul-fikril ərəbi. (s.12); Əbu Nəsr əl-Farabi, Mühəmməd ibn Mühəmməd, *kitabul-Millət*. (beşinci bənd). (Hazırlayan: Möhsin Məhdi). Fəslnameye ülume siyasi, üçüncü il, (12-ci nömrə).

[3] Əbu Nəsr əl-Farabi & Mühəmməd ibn Mühəmməd, *İhsaul-ülum*. (təhqiq: Osman Əmin). (ikinci çap). Darul-fikril ərəbi. (s. 8).


www.SID.ir

Archive of SID


Bu məsələyə ümumi baxışdır və təbii ki, digər tərəfdən Fərabinin elmlər haqda görüşünün nədən ibarət olmasını, eləcədə təsnifat keyfiyyətinin göstəricisidir. Lakin axtarmaqda olduğumuz məsələlər Fərabi zəkasının daha dərinliklərində zaman qatı altında aram tutub təlatümə hazır olan həqiqətləri həyacana gətirməkdir. Bu üzdən qərara aldıq ki, ilk baxışda sadə sadalanan nəzəri və əməli hikmət dediyimiz təsnifatın alt qatlarına  və Fərabi zəkasının əsas səhnəsinə, xüsusilə "İhsaul-ülum" və "əl-Millət" kitabları kontekstində baş çəkək.

### *Fiqh (hüquq) elmi*

Dedik ki, Fərabi elmlərin təsnifatı kitabının beşinci fəslini əməli hikmətə ixtisaslandırır. Filosofun əməli hikmətə yanaşması özünə xasdır və tarixdə bir çox fikir və cərəyanların ilham mənbəyinə çevrilmişdir. Əməli hikməti iki əsas sahəyə yəni mədəni elm və fiqh-kəlama bölür. Fərabi irsində fiqh, fəlsəfə və kəlam elmi fikir təməli olduğu üçün belə qənaətə gəldim ki, hər şeydən əvvəl Fərabinin fiqh və bu günün dili ilə desək hüquq və onun digər iki elm yəni fəlsəfə və kəlamla münasibətinə işarə edim.

Fərabi fiqh elmini hamıdan fərqli və eyni halda dəqiq bəyan edir. Fərabinin anlatdığı fiqh və hüquq bu gün dünyada və xüsusilə dini sferada tanınan və qəbullanan fiqhdən fərqli və genişdir. Fiqh Fərabiyə görə şəriət sahibinin demədiklərini dediklərinə istinadən çıxarış etməsidir. Bu səbəbdən şəriət sahibi tərəfindən deyilən məsələlərə "üsul", deyilməyənlərə isə "füru" deyilir. Qeyd etməliyik ki, fiqh mənaca çağımızdakı fiqhdən fərqlənmir. Lakin Fərabinin dediyi fiqh və hüquq bəhs obyekti etibarı ilə və eləcə də  tədqiqat dairəsi genişliyi baxımından günümüzün fiqhindən daha genişdir. Bu arada, Fərabini başqalarından fərqləndirən əsas cəhət fiqhi iki sahəyə yəni nəzər və əmələ bölməsidir. Əməli fiqh bu gün fiqhin obyekti sayılan təklif həddinə çatmış insanın (mükəlləfin) əməllərindən ibarətdir. Fiqhin nəzəri tərəfinin bəhs obyekti isə əqidələr, təfərrüatı ilə desək tövhid, sifətlər, aləmin məxluq və hadis olması və qısaca yaranışa və yaradana baxış bucağıdır.[1]

[1] Əbu Nəsr əl-Farabi & Mühəmməd ibn Mühəmməd, (1389). *İhsaul-ülum*. (mütərcim: Hüseyn Xədiv Cəm). Tehran: şirkəte intişarate elmi və fərhəngi. (s.113).


www.SID.ir

Archive of SID
*Beynəlxalq Metafizika Mərkəzi* *DOI 10.29228/metafizika.*
*Metafizika jurnalı* *ISSN 2616-6879 (Print)*
*2020, cild 3, say 2, sıra 10* *ISSN 2617-751X (Online)*

## *Fiqh və kəlam*

Belə olan halda diqqəti cəlb edən məsələ fiqhin nəzəri sahəsinin kəlam və teologiya ilə fərqidir. Fərabiyə görə kəlam topika[1] əsaslı elmdir və digər dinlərlə dialoqa girib qəbullanan aksiyomlar prinsipi əsasında söhbət mövzusudur. Amma fiqh istinbat və isbatlı elmdir, kəlamın öncədən qəbul etdiyi bəhs obyektini fikir mərkəzinə çevirir və arqumentlər əsasında isbatlayır. Kəlam elmində sonda, ağıl məhkumdur, fiqh də isə ağıl tam hakim vəziyyətdə dayanır. Fiqhin əməli və praktik bölməsində üsul və füru olduğu kimi nəzəri qismində də füru və üsullar mövcuddur. Əməli qismin üsulları hamıya bəlli sayılan dinin "zəruriləridir" və bu məsələlərdə təqlid edilməz. Şübhəsiz nəzəri qismin də üsulları qəti və isbata ehtiyacı olmayan prinsiplərdir.[2] Fiqh və fəqihin işi istinbat və fikirlərin əsaslı mənbələrdən çıxarışıdır. Fərabi deyir:

*"Fiqh, şəriət sahibinin aşkar dediklərindən aşkar demədiklərini istinbat yolu ilə müəyyənləşdirməkdir."*[3]

Bu üzdən Fərabinin fiqhi Quran terminalogiyasına daha yaxındır ki, belə fiqhə fiqhi-əkbər (böyük fiqh) deyilir. Deməli, Fərabinin fiqhi ilə kəlamı arasındakı fərq budur ki, fiqh azad formada əməl meydanıdır, lakin kəlam müdafiə xarakterli və öncədən qəbullanan fikirlərin qorunması naminə aparılan mübahisə obyektidir.[4] Fərabinin fiqhini müasir dünyada "din fəlsəfəsi" adı altında yerləşən elmlə paralel səviyyədə qeyd etmək yerinə düşərdi. Bu səbəbdən deyə bilərik ki, kəlamçı din himayədarı, fəqih isə din tədqiqatçısıdır.[5]

---

[1] Qarşılıqlı danışma yolu ilə istidlal etmə sənəti, mübahisə sənəti.

[2] Əbu Nəsr əl-Farabi & Mühəmməd ibn Mühəmməd. *İhsaul-ülum.* (təhqiq: Osman Əmin). (ikinci çap). Darul-fikril ərəbi. (s. 107-108).

[3] Yenə orada.
«وصناعة الفقه هى التى بها يقتدر الانسان على ان يستنبط تقدير شى شى مما لم يصرح واضع الشريعة بتحديده على الاشياء التى صرح فيها بالتحديد والتقدير»

[4] Yenə orada.
«و صناعة الكلام ملكة يقتدر بها الانسان على نصرة الاراء و الافعال المحدودة التى صرح بها واضع الملة و تزييف كل ما خالفها بالاقاويل»

[5] Yenə orada: Farabi kəlamçıları beş yerə bölür və hər birinin dəyər səviyyəsini bəlliləşdirir.


www.SID.ir

Archive of SID


**Fiqh və din**

Din Fərabinin əsas fikir obyektidir. O, din haqda fikirlərini əl-millə traktatında dəqiq və zərifliklə təqdim etmişdir. Millət[1] sözünün insan toplumundan ibarət olması son dövrlərə aiddir. Fərabi dövründə isə millət sözü din mənasını ifadə edir. Fərabi millət və dini qeyd və şərtli əqidə və əməllərdən ibarət bilir ki, "birinci rəis və başçı"[2] onları müəyyən hədəfə nail olmaq naminə insanlara gətirir və bəyan edir. Dinin nəzəri sahəsi cahanşünaslıq (kosmologiya) və insanşünaslıqdan (antropologiya) ibarətdir. Allah, sifətləri, insanların qeyri maddi aləm və varlıqlarla əlaqə keyfiyyəti, aləmin yaranması, xilqətin ədalət və qanunlara əsasən bərpası, vəhy, nübüvvət, ölüm, xoşbəxtlik və bədbəxtlik bu sahənin bəhs obyektidir. Dinin əməli sahəsi insanların özləri və başqaları ilə əlaqəsinə işıq salır. Bu əlaqələr qanun, vəzifə və hüquqlar çərçivəsində təcəssüm edir. Dinin əməl və fel sahəsinə "şəriət və sünnə" də deyilir. Bu sistemin qorunub saxlanılmasının əsas qarantı ədalətdir. Dinin tərifində əsas rol oynayan ünsürlər, dinin nəzəri və əməli sahələri əhatə etməsi, fərdə xas olmaması, cəmiyyətə aid olması, sonda lider və başçıya ehtiyaclı olmasıdır. Bu ünsürlər dini Fərabinin dediyi fiqhlə sinonim edir və tam paralel vəziyyətə gətirir. Fərabi israrlıdır ki, fiqh və fəqih din və din alimidir.[3]

***Fiqh və fəlsəfə***

Fiqh Fərabi görüşündə fəlsəfənin kölgəsində dayanır. Beləki, fiqhin nəzəri bölməsi fəlsəfənin nəzəri bölməsində isbatlanır, əməli bölməsi isə fəlsəfənin əməli sahəsinin predmeti və qeyd-şərtli nümunələridir. Deməli, dinin nəzəri və əməli şaxələrinə paralel olaraq fəsəfə də eyni şaxələrə haçalanır. Fəsəfə dinin ehtiva etdiyi hüquq və vəzifələrin umimi, yəni qeyd və şərtsiz formasıdır. Dində yalanın, xəyanətin qəbahətindən bəhs edilirsə, fəlsəfədə qəbahət və pisliyin nədən ibarət olması barədə bəhs açılır. Həmçinin nemət verənin şükrü, vacibəl vücudun varlığı

[1] Millət sözü son yüzillikdə ingilis və fransız dillərində bəlli olan "nation" kəlməsini ifadə edir. Amma millə kəlməsi Rağib İsfahaninin Müfrədati əlfazi Quran kitabında dediyi kimi din sözü ilə sinonimdir. Quranda "millətə İbrahim" və bu kimi cümlələr eyni mənanı ifadə edir. Ərəb dilində dinlər və məzhəblər haqqında yazılan kitablar da əl-Miləlu vən-nihəl adı ilə təlif olunurdu.

[2] Farabi "ər-Rəisul-əvvəl" sözündən istifadə edir.

[3] Əbu Nəsr əl-Farabi & Mühəmməd ibn Mühəmməd. *kitabul-Millət,* (bir, iki və üçüncü bəndlər). (Hazırlayan: Möhsin Məhdi). Fəslnameye ülume siyasi, üçüncü il, (12-ci nömrə).


www.SID.ir

Archive of SID


fəlsəfənin bəhs obyektidirsə, dində şükrün müəyyən əməl formasında məsələn, namaz qanunu çərçivəsində olaması zərurətindən bəhs açılır və eləcə də fəlsəfədə deyilən vacibul-vücudun məhz yeganə varlıqdan ibarət olmasını xatırladır. İnsanlıq, qarşılıqlı hörmət, hüquqların gözlənilməsi, iqtisadi əlaqələr fəlsəfi görüş, lakin müəyyən qayda və qanunlar çərçivəsində insanların davranış prinsipləri, müvafiq və müxalif cinslərin görüş sistemi, məkan və zaman kantekstində qanunların hansı keyfityyətdə tənzimlənməsi dinin görüşüdür. Qısaca, nəzəri fəlsəfə dinin nəzəri qisminin dəlil arxası, əməli fəlsəfə isə dinin əməli qisminin qeyri müəyyən və ümumi formasıdır.[1]

Onuncu bənddə bir daha fəlsəfə ilə fiqhin münasibətlərinə qayıdır və deyir ki, əməli fiqhin əsas şərti ümumi qanunlar və dinin hədəfinin bəlli edilməsidir ki, bu da əməli hikmət deyilən elmdə bəhs obyekti olmalıdır. Nəzəri hikmətə gəlincə isə fiqh fəlsəfənin kulli qanunanlarının cüzi hissələri və ya fərdi nümunələridir. Bu üzdən məşhur islam filosofu Əbu Əli Sina[2] "əş-Şifa" kitabında nübüvvət və peyğəmbərlik mövzusuna müəyyən peyğəmbər etibarı ilə baxmır, ümumi qanun olaraq bəhs edir və ya fəlsəfədə "Allah" deyil, vacibul vücud araşdırılır. Buna görə müəyyən peyğəmbər fəlsəfədə bəhs olunan nübüvvətdən biri və Allah-taala isə fəlsəfənin vacibul vücudunun misalıdır. Görürük ki, Fərabi necə dəqiq və zərif formada fəlsəfə və fiqhin münasibətlərinə işıq salır.[3]

## *İstinbat və ictihad*

Dedik ki, Fərabiyə görə geniş mənalı fiqh dinlə sinonim mənalardır. Fiqh dindən ibarət, fəqih isə din alimidir. Fərabi əl-millətin doqquzuncu bəndində "hidayət öndərləri"[4] deyərək ictihad əhli haqında bəhsə başlayır. Burada diqqəti cəlb edən məsələ Fərabinin "istinbat" kəlməsindən istifadə etməsidir. "İstinbat" (arqumentasiya) əsaslara dayanıb insanlığa, insan həyatına və yaşam tərzinə gərəkli olan məsələ-

[1] Yenə orada, (beşinci bənd).
[2] Əbu Əli Hüseyn ibn Abdullah ibn Sina (980-1037) dünya şöhrətli İslam filosofu və görkəmli təbib.
[3] Yenə orada, (onuncu bənd).
[4] Farabi *"Əimmətu hüda"* adlandırır.


www.SID.ir

Archive of SID


ləri və ehtiyacları təmin etməkdir. Fərabi dili ilə desək, birinci rəis və canişinləri[1] zamanında hər hansı bir səbəbdən[2] mövcud olmayan hadisə və məsələlərin, onlardan sonra gələn hidayət öndərləri tərəfindən, ehtiyacların təmini və yeni tələblərə cavab olaraq mövcud zabitə və qanunlar əsasında çıxarış edilməsinə istinbat deyilir. Bu arada fiqh elmində məşhur olan "ictihad" sözü də sətirlərə əlavə olunmalıdır. Çünki bu iki söz tarixdə çiyin-çiyinə hərəkət etmişdir. Axund şeyx Mühəmməd Kazim Xorasani[3], "Kifayətul-üsul" kitabının ictihad və təqlid bölməsində, ictihad sözünün lüğətdə və elmi mənasına işarə edir və deyir: *"İctihad lüğətdə çətinliyə dözməkdir"*.[4]

Axund ictihadın elmi mənasını dinin əsas prinsiplərinə istinadən çıxarılan şəri hökmlər - ibarəsi ilə ifadə edir.[5] Elmi mənada da lüğətdəki zəhmət və səy ünsürü qabarır, lakin bu zəhmət məhz şəri hökmləri mənbəyindən əldə edilməsi üçün çəkilən zəhmətdir.

Diqqəti cəlb edən məsələ ictihad və istinbat sözləri arasından "ictihad" deyil, məhz "istinbatın" fəqihin vəzifəsi ünvanında qeyd edilməsidir. Belə nəzrə gəlir ki, bu heç də təsadüfdən gələn seçim deyil.

Burada ictihadın tarixdəki eniş və yoxuşu haqda bəhs etmək niyyətində deyiləm, lakin İkinci müəllimin tarixdə nə qədər həssas məsələlərə dəqiq yanaşmasını diqqətə çəkmək qəsdindəyəm. Bu üzdən qısa da olsa ictihadın tarixdəki roluna işarə etmək məcburiyyətindəyəm.

İctihad tarixdə müxtəlif mərhələləri keçmişdir. Bu kəlmə ən əvvəl İmamiyyə və Əhli-beyt məktəbi tərəfdarları tərəfindən müsbət qarşılanmırdı. Belə bir durum ondan irəli gəlirdi ki, ictihad kəlməsi əhli beyt məktəbi xaricində şəxsi rəyin ifadəsi kimi işlənirdi. Şəhid Sədrə[6] görə ictihad kəlməsi ilk vaxtlarında şəxsi rəydən ibarət idi və bu məna, haqqında söhbət etdiyimiz kəlməni zabitəsiz edirdi.[7]

---

[1] Fərabi *"Rüəsau-əbrar"* adlandırır.

[2] Fərabi əl-Millənin yeddinci bəndində bu səbəbləri açıqlayır.

[3] Axund Xorasani və ya kifayənin sahibi kimi tanınan Molla Mühəmməd Kazim Xorasani (1255-1329 h./1839-1911m.) dövrünün ən məşhur fəqih, siyasətçi alim və Mirzayi Şirazidən sonra imamiyyə məktəbinin mərcə təqlidi olmuşdur.

[4] Axund Xorasani & Şeyx Mühəmməd Kazim. *Kifayətul-üsul*. Müəssisətun-nəşril-İslami, (c.3). (əl-xatimə).

[5] Yenə orada.

[6] Seyid Mühəmməd Baqir Sədr. (1353-1400). "Iqtisadımız" və "Fəlsəfəmiz" adlı kitabların müəllifi, məşhur fəqih, filosof, nəzəriyyəçi alim.

[7] Əs-Sədr & Seyyid Mühəmməd Baqir. *Durusun fi elmil-üsul.* əl-həlqətul-ula, Müəssisətun-nəşril-İslami. (s.50).


www.SID.ir

Archive of SID
Beynəlxalq Metafizika Mərkəzi DOI 10.29228/metafizika.
Metafizika jurnalı ISSN 2616-6879 (Print)
2020, cild 3, say 2, sıra 10 ISSN 2617-751X (Online)

Bu deyilənlər ictihadın mahiyyətcə imamiyyə məktəbi tərəfdarları arasında olmaması anlamına gəlmir. İctihad və istinbat, əsasında, şəriətə münasib əməl və rəftarın təyinidir. Tarix, İmamiyyə məktəbi tərəfdarlarının Peyğəmbər (s) və əhli-beytə əsaslanaraq dini hüquqların və şəriət hökmlərinin çıxarışı istiqamətində həddən ziyadə səy və zəhmətlərinin şahididir. Şeyx Mufidin[1] **"**Məqabisul-ənvar fir-rəddi əla əhlil-əxbar" kitabı, Seyyid Mürtəzanın[2] "Əl-intisar" və "Əz-zəriə" kitabları və Şeyx Tusinin[3] "Fehresti" və "Üddətül-üsul" kitabları və həmçinin əhli-beyt məktəbinin bu istiqamətdə olan elmi irsi, haqqında söhbət etdiyimiz mövzuya bariz nümunədir.

Lakin ictihad sözünə qarşı yaranan müqavimətin əsas səbəbi ictihadın şəxsi rəydə məhdudlanması idi. İctihad kəlməsi hər cür şəxsi rəy olduğu üçün imamiyyə məktəbi tərəfdarları bu kəlməni ilk mənası kimi qəbul etmirdirlər. Heç bir mənbəyə əsaslanmadan şəxsi fikirə əsasən, məsələlərin analogiyasına arxalanıb vahid hökm qərarı vermək və bu kimi əsassız fikirlərlə çıxış etmək ictihad kəlməsini qeyri məqbul etmişdi. Bu üzdən hədislərdə ictihada əks yönəlik və mənfi davranış bu mənadan irəli gəlirdi. Nəhayət ictihad sözü bu mənası ilə yeddinci əsrə qədər məqbul sayılmırdı.

Hicri Qəmərinin yeddinci əsrindədir ki, imamiyyə məktəbi bu kəlməni fərqli mənada öz elmi leksikonuna daxil edir. Bu o deməkdir ki, yeddinci əsrə qədər imamiyyə təfəkkürü bu sözə münasibətdə müqavimət göstərirdi. Çünki ifratçı hədis elminə qarşılıqlı olaraq İraq məktəbinin şəxsi rəy tərəfdarları meydan oxuyurdular. Bunlar ifrat hədisə qarşı olsalar da digər tərəfdən ifratçı şəxsi rəyə meydan açmışdılar. Hədis mənbələrinə müraciət bu məsələni təsdiqləyir. O cümlədəndir "Vəsailüş-şiənin" 27-ci cildinin 6-cı fəsli, "şəxsi rəyə və ictihada görə hökmün qadağa olması"[4] ünvanı altında bu zəmində bir çox hədisləri bəyan edir. Hədislərin ümumi məzmunu şəxsi rəy əsasında baş verən "*ictihadın"* inkiradır. Buna əsas dəlil, hədislərdə

---

[1] Şeyx Müfid Əbu Abdullah Mühəmməd ibn Mühəmməd ibn Nöman dahi fəqih və kəlamçı alim (336-413\948-1022) Bağdad şəhəri yaxınlığında dünyaya gəlmişdir.

[2] Seyyid Mürtəza Əli ibn Hüseyn ibn Musa (355-436 fəqih, kəlamçı alim və imamiyyə məktəbinin nüfuzlu ictimai şəxsiyyətlərindəndir.

[3] Şeyx Tusi Əbu Cəfər Mühəmməd ibn Həsən (385-460\995-1067) İmamiyyə məktəbinin məşhur fəqih və kəlamçı alimi.

[4] Şeyx Hürr Amili & Mühəmməd ibn əl-Həsən. *Vəsailüş-Şiə ila təhsili məsailiş-şəriət*. Müəssisətu Alil-beyt li-ihyait-türasil-ərəbi. (c.27). (6-cı bab).


www.SID.ir

Archive of SID


ictihadın şəxsi rəylə sinonim kimi işlənməsi və Şeyx Hürr Amilinin[1] fəslin sonunda bu deyilən məzmunu açıq-aşkar təsdiqləməsidir.

Nəcaşinin rical kitabında[2] şəxsi rəy və ictihada qarşı yazılmış kitab adlarının çəkilməsi, o cümlədən Əbdür-Rəhman Zübeyrinin "Əl-istifadə fit-tüun ələl-əvaili vər-rəddi əla əshabil- ictihadi vəl-qiyas" kitabı deyilənlərə bariz nümunədir. Bunların hamısı şahiddir ki, ictihad yeddinci əsrə qəqər istinadsız şəxsi rəydən ibarət idi. Nəhayət Mühəqqiq Hilli[3] "Məaricül-üsul" kitabında ictihadı tərif etdikdən sonra deyir analogiya və şəxsi rəy müstəsna olmaqla biz də hökmləri mənbəindən hasil etdiyimiz üçün ictihad əhli sayılırıq.[4] İctahad sözünə tarixin müəyyən çalarında müqavimət olsa da bu sözü "istinbat" kəlməsi əvəz edə bilirdi. İstinbat kəlməsinin əsas özəlliyi bundan ibarət idi ki, bu metodun sahibi müstəqil mənbə deyil, əldə etdiyi hökm və qanunları müəyyən mənbə və əsaslardan kəsb edirdi. Fərabinin də əhəmiyyəti məhz burada özünü göstərir. O, çox dəqiq, zərif və doğru olaraq "istinbat" kəlməsindən yararlanır və sözün doğru mənada işlənməsində israrlıdır. Buna görə Fərabi birinci rəis və canişinlərinin hidayət öndərləri ilə fərqində qeyd edir ki, birincilərin istinadgahı özləri, sonuncular isə birincilərə istinad edirlər.

Sonda bir daha qeyd etmək istərdim ki, İkinci müəllimin görüşü günümüzdə məşhur olan fiqh və hüquqdan çox genişdir. Buna görə rasionallığı nümayiş etdirə biləcək, həm də fiqhin əmələ aid olan elm olması eyniliyində nəzərdən ibarət olmasını göstərə biləcək əsas söz dəlilləndirmə, arqumentləşdirmə mənaları daşıya biləcək "istinbat" kəlməsidir. Dahi filosof Əbu Nəsr Fərabi əməl-nəzər vəhdətini, eləcə də formadan məzmuna keçid prinsipini söz və terminlərin işlənməsində də layiqincə göstərmişdir. Beləliklə Fərabiyə görə əməl tərzimiz fəlsəfiliyimizdən kənar deyil və bunları bir-birindən təcrid olunmuş tərzdə qarşılamaq elmlərin mənasız hala gəlməsi ilə nəticələnəcəkdir.

---

[1] Şeyx Məhəmməd ibn Həsən Hürr Amili (1033-1104\1624-1693).

[2] Nəcaşi & Əbul-Həsən Əhməd ibn Əli ibn Əhməd. *Fehrestu Əsmai müsənnifiş-Şiə (Ricalun-Nəcaşi)*. Müəssisətun-nəşril-İslami licəmaətil-müdərrisin. Qum. (s. 151)

[3] Mühəqqiq mütləq formada Şeyx Nəcmud-din Əbul-Qasim Cəfər ibn Həsən ibn Yəhya ibn Səid Hilliyə deyilir. Əllamə hilli mühəqqiqin bacısı oğlu, həm də şagirdidir. Şəraye və əl-müxtəsərun – nafe fiqhdə, həmçinin əl-məaric üsulda bu alimin elmi irsi sırasında yer alan əsərlərdir.

[4] Mühəqqi Hilli & Şeyx Nəcmud-din Əbil-Qasim Cəfər ibn əl-Həsən ibn Yəhya ibn Səid. *Məaricu-üsul*. (təhqiq: Məhəmməd Hüseyn Rəzəvi. Müəssisətu Alil-beyt (ə) li-ihyait-turas, Qum. (s. 179).



www.SID.ir

Archive of SID
*Beynəlxalq Metafizika Mərkəzi* **DOI 10.29228/metafizika.**
*Metafizika jurnalı* **ISSN 2616-6879 (Print)**
*2020, cild 3, say 2, sıra 10* **ISSN 2617-751X (Online)**

### *Nəticə*

Fərabi, əməli elmlər, xüsusilə siyasi fəlsəfə və əxlaqi nəzəriyyələri ilə tanınmasına baxmayaraq, onu başqalarından fərqləndirən əsas amil əməl-nəzərin eyniliyi nəzəriyyəsi və nəticədə nəzərsiz əməlin adsurd olmasını göstərməsidir. Bu məsələ ilk baxışda sadə və bəsit görünsə də fəlsəfə tarixində bir çox məsələlərin həlli potensiyalını özündə daşıyır. Fərabi bu addımla fəlsəfəni həyatın bütün çalarlarına sirayət verir, beləki əməli elmləri, ələl-xüsus fiqh və hüququ fələsəfə sayəsində reallaşdırır. Məqalə əməli və nəzəri elmlərin fərqini açıqlama qəsdində deyil, bu fərqə işıq salaraq onların vəhtəd konsepsiyasını göstərərək, nəzərin əməlin fövqündə dayanmasını yox, əməlin nəzərdən ibarət olmasını aşkar edir. Bu yolla əməl meydanında gəzib-dolanıb, yorulduqda fərdiliyimizə çəkilib fəlsəfiləşməyi məqsədəuyğun hesab etmir. Bu istiqamətdə İkinci müəllimin üç əsas kitab və traktatını rəhbər tutub, əməli elmlərdə fiqh və kəlamı, nəzəri elmdə isə fəlsəfəni incələyərək formadan məzmuna keçid keyfiyyətinə işıq saldıq. Elmlərin təsnifatı kitabı Fərabinin ikinci müəllim kimi tanınmasında əsas rol oynamışdır. İkinci müəllimin əl-Millə əsəri də elmlərin müqayisəsi kimi görünsə də forma-məzmun vəhdətini yüksək səviyyədə tərənnüm edir və bu istiqamətdə misilsizdir. Fərabi, elmlərin dəyərini göstərməklə, elmlər arasında körpülər yaratmaqla, hər bir elmin insan təcrübəsində yerini bəlliləşdirməklə bəşərin elmi irsini zənginləşdirdi. Elmlər arasında fiqh (hüquq), kəlam (teoligiya), fəlsəfə və əxlaq, insanı nəzər və əməldə ehtiva edən elmlərdir, hansı ki, bu elmlər fikir və ağılı, insani hissləri və daxili aləmini, həmçinin insanlar arasında münasibəti təmin və tənzim edir. Fərabi görüşündə fiqh, yalnız təklifli insanların rəftarını müəyyən edən elm deyil, nəzər və əqli məsələlər də bu elmin bəhs obyektidir. Belə olan halda ictihad və istinbat (mənbələrdən çıxarış etmək) fiqh və hüququn nəzəri sahəsində də yer alır. Fiqh bu qədər geniş sahəni əhatə edirsə kəlam və fəlsəfənin hüdudlarına da girmiş sayılır. Bu ilk görüşdə belə görünür, lakin Fərabi kəlam elminin hüdudlarını bəlli edərkən, bu elmi digər dinlərlə dialoqa girib qəbullanan iddialar prinsipi əsasında söhbət obyekti hesab edir. Buna görə kəlamçının əsas qayəsi qarşı tərəfi susdurmaqdan ibarətdir. Fəlsəfəyə gəlincə isə Fərabi bu elmi bütün elmlərin fövqündə yerləşdirir. Bu elm fiqhin arqumentlərlə isbatladığı məsələlərin əsas səbəbi və ümumi qanunu və ya misalların ümumi konsepsiyasıdır. Fərabi, fiqhi həqiqi hüdudlarında göstər-


www.SID.ir

Archive of SID


məklə onu günümüzdə başa düşülən fiqhdən fərqləndirir. Məqalədə, ictihad və istinbat tarixinə baxış keçirməklə Fərabinin istinbat kəlməsindən çox zərifliklə istifadə etməsi iddası edilmişdir. İstinbat, hüquqi qanunların elmi nəzəriyyələrə istinadən əsas mənbələrdən əldə olunma proseisinə deyilir. İctihad isə qanunları mənbələrdən çıxarış edən şəxsin hüquqi statusudur. Fərabinin istinbat və ictihadı günümüzdə məşhur olan hüquqi dairədən qat-qat genişdir.


www.SID.ir

Archive of SID
Beynəlxalq Metafizika Mərkəzi DOI 10.29228/metafizika.
Metafizika jurnalı ISSN 2616-6879 (Print)
2020, cild 3, say 2, sıra 10 ISSN 2617-751X (Online)

### *Ədəbiyyat*

1. Axund Xorasani, M. K. (1430). *Kifayetul-usul*, Qum: Muessisetun-neshril-İslami.

2. Eli ibn Yusif el-Qefti, C. Ə. (2005). *İxbarul-ulemai biexbaril-hukemai*, Beyrut: Darul-kutubil-elmiyye.

3. Farabi, E.M. İhsaul-ulum, (ikinci chap), Osman Emin (tehqiq), Darul-fikril erebi.

4. Farabi, E.M. (1379). Kitabul-Millet, Möhsin Məhdi (tehqiq), Feslnameye ulume siyasi, uchuncu il, (12).

5. Farabi, E.M. (1389). *İhsaul-ulum, Huseyn Xediv Cem (mutercim),* Tehran: İntisharate elmi ve ferhengi.

6. Hilli, C.H. (1403). *Mearicu-usul, Muhemmed Huseyn Rezevi (tehqiq), Qum, Muessisetu Alil-beyt (e) li-ihyait-turas.*

7. Nəcaşi, E. E. (1365). *Fehrestu Esmai musennifish-Shiə (Ricalun-Necashi),* Qum: Muessisetun-neshril-İslami licemaetil-muderrisin.

8. Ragib, H.M. (1412). *Mufrədatu elfazil-Quran,* Sefvan Ednan Davudi (tehqiq), Beyrut: Darush-Shamiyə.

9. Sedr, M.B. (1423). *Durusun fi elmil-usul,* Qum: Mecmeul-fikril-İslami.

10. Amili, M.H. (1416). *Vesailüsh-Shiə ila tehsili mesailish-sheriet,* Qum: Muəssisetu Alil-beyt li-ihyait-turasil-erebi.

***Dr. Vagif Guliyev***

## *The Path Leading from the Form to Content in the Context of the Unity of Theory and Action (practice) in the Inheritance of Al-Farabi*

*(abstract)*

*Al-Farabi's scientific-philosophical legacy reached the present in various fields of science. It's not in vain that Al-Farabi went down in history under the name «Second Teacher». The methodology of the scientific and philosophical system of «The second Teacher» is the main contribution to the unity of theoretical and practi-*



www.SID.ir

Archive of SID



*cal of world science and universal world view. This article is devoted to some books and treatises as «Ehsaul-ulum» (classification of sciences), «Al-millet» and «Al-tambikhalasabilis-saadati» (the path leading to the knowledge of happiness) that enriched the world science. Guided by these books one can study their impact on science, philosophy, psychology, morality, and life processes of human activities. In history, the main merit of Al-Farabi is that he created communications among separate islands of science which gave prerequisites for additional sciences in the future. The eliminating of scattering in the sciences by the philosopher and associating them under a Singh beginning put an end to disagreements. For this reason, the article indicates the boundaries inherent in these sciences, especially "figh"(juris prudence or law), philosophy, theology (kalam), religion and their relationships. "The second Teacher"s attitude to "figh" and law is much wider than external relations and those laws that exist and regulate among people. In this way, Al-Farabi insists on studying phenomena, actions, and relationships, considering this way very useful. Despite the fact that "figh" and law cover such wide areas it does not exclude objects of despite between theology and philosophy. To prove this "Second Teacher" revealed the essence of theology and the importance of philosophy for history. He noted theology as an unreasonable goal, but philosophy he defined as "the highest" science in its meaning, able to relate to emerging challenges. And finally the religious concept he called "millet", he observes from a scientific – philosophical point of view, detailing them deeply and carefully. The article highlights the development of the terms "ijtihad" (overcoming difficulties) and "istinbat" (approval) in history in detail.*

**Keywords:** *Al-Farabi, "figh" (law), theology (kalam), philosophy, ijtihad, istinbat.*

***Др. Вагиф Гулиев***

## ***Путь от формы к содержанию в контексте единства теории и практики в наследии Аль-Фараби***

*(резюме)*

*Научно-философское наследие Аль-Фараби сохраняется до настоящего времени в различных сферах науки. Неспроста, Аль-Фараби вошёл в историю под именем «Второй Учитель». Научно-философская система, методология и единство теории и практики Второго учителяявляются существенным вкладом в мировую науку и мировоззрениечеловека. Данная статья основываясь некоторым книгам и трактатам философа, которые обогатили мировое научное наследие, включая «Ихсауль-улюм» (классификация наук), «Аль миллет» и«Аль-Танбих Аля сабилис-саадати»(осознание пути кчас-*



www.SID.ir

Archive of SID


*тью) предполагаетпролить свет на принцип единства в рамках статьи, а также на форму и содержание этого единства. Главная заслуга Аль-Фараби в истории отмечается тем, что он создал связи между отдельными островами науки, которые в дальнейшем заложилиоснову для дополнительных наук. Устранение философом разбросанности в науках и объединение их под единым началом, положило конец разногласиям. По этой причине, в статье указаны границы, присущие наукам, в особенности «фигх» (юриспруденция или право), философия, калам, религия и их взаимоотношения. Отношение «Второго Учителя» к «фигху» и праву, намного шире внешних взаимоотношений и тех прав, которые существуют и регулируются людьми. Таким путём Аль-Фараби настаивает на исследовании явлений, действий и взаимоотношений, считая этот путь весьма полезным. Несмотря на то, что «фигх» и право охватывают такие обширные области, это не исключает объекты противоречий между теологией и философией. Для доказательства этого «Второй Учитель» раскрыл суть теологии и значение философии для истории научного мира. Теологию он отметил как неаргументированную цель, философию же, он определил, как «высшую» по своему значению науку способную по сути подходить к вопросам, выходящим за рамки юриспруденции. И, наконец, религиозную концепцию, называемую им «миллет», он наблюдает с научно-философской точки зрения, детализируя их глубоко и тщательно. Статья подробно освещает развитие в истории терминов «иджтихад» (преодоление трудностей) и «истинбат» (доказательство), которые являются ключевыми словами в праве.*

**Ключевые слова:** *Аль-Фараби, «фигх» (право), теология (калам), философия, иджтихад, истинбат.*

*Məqalə redaksiyaya daxil olmuşdur: 31.08. 2019*
*Təkrar işləməyə göndərilmişdir: 29.09. 2019*
*Çapa qəbul edilmişdir: 30.05. 2020*



www.SID.ir